# Xarici investisiyanın qorunması haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikasının ərazisində xarici investisiya qoyuluşunun hüquqi və iqtisadi prinsiplərini müəyyən edir. Qanun xalq təsərrüfatında xarici maddi və maliyyə ehtiyatlarının, qabaqcıl xarici texnikanın və texnologiyanın, idarəetmə təcrübəsinin cəlb olunmasına, bunlardan səmərəli istifadə edilməsinə yönəlmişdir və xarici investorların hüquqlarının müdafiəsinə təminat verir.

## I BÖLMƏ

## ÜMUMİ MÜDDƏALAR

M a d d ə 1. **Xarici investisiya haqqında qanunvericilik**

Azərbaycan Respublikasının ərazisində xarici investisiya ilə bağlı münasibətlər bu Qanunla, Azərbaycan Respublikasının başqa qanunvericilik aktları və beynəlxalq müqavilələri ilə nizama salınır.

Maddə 2. **Xarici investorlar**

Azərbaycan Respublikasında xarici investorlar aşağıdakılar ola bilər:
a) xarici hüquqi şəxslər;
b) xarici vətəndaşlar, vətəndaşlıq olmayan şəxslər və xaricdə daimi yaşayış yeri olan Azərbaycan Respublikası vətəndaşları; bu şərtlə ki, onlar vətəndaşı olduqları və ya daimi yaşadıqları ölkədə təsərrüfat fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış olsunlar;
v) xarici dövlətlər;
q) beynəlxalq təşkilatlar.

Maddə 3. **Xarici investisiya və onun qoyulması formaları**

Xarici investorların mənfəət əldə etmək məqsədilə sahibkarlıq fəaliyyəti və başqa növ fəaliyyət obyektlərinə qoyduqları əmlakın və əmlak hüquqlarının bütün növləri, o cümlədən intellektual fəaliyyətin nəticələrinə hüquqlar və əşya hüquqlarına aid olmayan digər hüquqlar xarici investisiyadır.

Xarici investorlar Azərbaycan Respublikası ərazisində aşağıdakı yolla investisiya qoya bilərlər:
a) Azərbaycan Respublikasının hüquqi şəxsləri və vətəndaşları ilə birlikdə yaradılan müəssisələrdə, təşkilatlarda payçılıq iştirakı;
b) tamamilə xarici investorlara məxsus olan müəssisələr yaradılması;
v) müəssisələrin, əmlak komplekslərinin, binaların, qurğuların, müəssisələrdə iştirak payının, səhmlərin, istiqrazların və digər qiymətli kağızların, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə xarici investorlara məxsus ola bilən başqa əmlakın əldə edilməsi;
q) torpaqdan və başqa təbii ehtiyatlardan istifadə hüquqlarının, habelə digər əmlak hüquqlarının əldə edilməsi;
ğ) Azərbaycan Respublikasının hüquqi şəxsləri və vətəndaşları ilə xarici investisiya qoyuluşunun başqa formalarını nəzərdə tutan müqavilələr bağlanması.

Maddə 4. **Dövlətsizləşdirmədə və özləşdirmədə xarici investorların iştirakı**

Dövlət və bələdiyyə müəssisələrinin, habelə başa çatdırılmamış tikinti obyektlərinin özləşdirilməsində xarici investorlar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilən şərtlərlə və qaydada iştirak edə bilərlər.

Maddə 5. **Xarici investisiyanın hüquqi rejimi**

Bu Qanunda nəzərdə tutulmuş istisnalarla, xarici investisiyanın, habelə investisiya qoyuluşu sahəsində xarici investorların fəaliyyətinin hüquqi rejimi Azərbaycan Respublikasının hüquqi şəxslərinin və vətəndaşlarının əmlakı, əmlak hüquqları, habelə investisiya fəaliyyəti üçün yaradılmış rejimdən az əlverişli ola bilməz.

Xalq təsərrüfatının üstünlük verilən sahələrində və ayrı-ayrı ərazilərdə xarici investisiya üçün Azərbaycan Respublikasının qanunvericiliyi ilə əlavə güzəştlər müəyyən edilə bilər.[i[1]]

İnvestisiyaların cəlb edilməsi sahəsində dövlət müəssisələri və təşkilatları ilə bağlanmış kontraktların şərtlərinin icra olunmasına nəzarət müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir. [ii[2]]

M a d d ə 6. **Fəaliyyət növləri**

Xarici investisiyalı müəssisələr Azərbaycan Respublikasının qanunvericilik aktları ilə qadağan olunmamış hər hansı fəaliyyət növü ilə məşğul ola bilərlər.

Xarici investisiyalı müəssisələr müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi siyahıdakı ayrı-ayrı fəaliyyət növləri ilə yalnız xüsusi razılıq (lisenziya) əsasında məşğul ola bilərlər.[iii[3]]

M a d d ə 7. **Xarici investisiya üçün ərazi məhdudiyyətləri**

Azərbaycan Respublikasının qanunvericilik aktları ilə elə ərazilər müəyyən edilə bilər ki, müdafiənin, milli təhlükəsizliyin, ətraf təbii mühitin və əhalinin müdafiəsinin təmin olunması mülahizələrinə görə bu ərazilərdə xarici investisiyalı müəssisələrin fəaliyyəti məhdudlaşdırılsın və ya qadağan edilsin. [iv[4]]

M a d d ə 8. **İnvestisiya fəaliyyətinin əlaqələndirilməsi**

Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı xarici investisiyanın cəlb edilməsi və ondan istifadə olunması tədbirlərini hazırlayıb həyata keçirir, investisiya fəaliyyətini əlaqələndirir, xarici investorlara və xarici investisiyalı müəssisələrə kömək göstərir.[v[5]]

## II BÖLMƏ

## XARİCİ İNVESTİSİYA ÜÇÜN DÖVLƏT TƏMİNATLARI

Maddə 9. **Xarici investisiyanın hüquqi müdafiəsi**

Azərbaycan Respublikasının ərazisində xarici investisiya hüquqi cəhətdən tam və qeyd-şərtsiz müdafiə olunur. Belə müdafiə Azərbaycan Respublikasının bu Qanunu, başqa qanunvericilik aktları və beynəlxalq müqavilələri ilə təmin olunur.

Maddə 10. **Qanunvericiliyin dəyişdirilməsi ilə bağlı təminatlar**

Azərbaycan Respublikasının sonrakı qanunvericiliyi investisiya qoyuluşu şəraitini pisləşdirdikdə on il ərzində xarici investisiyaya investisiyanın qoyulduğu zaman qüvvədə olmuş qanunvericilik tətbiq edilir.

Bu müddəa müdafiənin, milli təhlükəsizliyin və ictimai qaydanın təmin olunması, kredit və maliyyə, ətraf mühitin, əhalinin əxlaq və sağlamlığının mühafizəsi barəsində Azərbaycan Respublikası qanunvericiliyinin dəyişdirilməsinə şamil edilmir. [vi[6]]

Maddə 11. **Milliləşdirmə və rekvizisiya ilə bağlı təminatlar**

Azərbaycan Respublikasında xarici investisiya, Azərbaycan Respublikasının xalqına və dövlət mənafelərinə zərər vuran müstəsna hallar istisna olmaqla, milliləşdirilmir.

Milliləşdirmə haqqında qərarı Azərbaycan Respublikasının Ali Soveti qəbul edir.

Təbii fəlakət, qəza, epidemiya, epizootiya və fövqəladə xarakter daşıyan başqa hallar istisna olmaqla, xarici investisiya rekvizisiya edilmir,

Rekvizisiya haqqında qərarı Azərbaycan Respublikasının Nazirlər Kabineti qəbul edir.

Milliləşdirmə və rekvizisiya tədbirləri görüldükdə xarici investora təxirə salınmadan müqabil və səmərəli kompensasiya ödənilir.

Maddə 12. **Xarici investorların zərərinin kompensasiya edilməsi və ödənilməsi**

Xarici investorlara ödənilən kompensasiya investisiyanın milliləşdirmə və ya rekvizisiya haqqında qərarın qəbul olunduğu vaxtdakı real dəyərinə uyğun olmalıdır.

Kompensasiya xarici valyuta ilə ödənilir və investorun arzusu ilə xaricə köçürülə bilər.

Xarici investorlar dövlət orqanlarının, yaxud onların vəzifəli şəxslərinin Azərbaycan Respublikası qanunvericiliyinə zidd olan hərəkətləri nəticəsində düşdükləri zərərin, o cümlədən itirdikləri faydanın ödənilməsi hüququna malikdirlər.

Kompensasiyanın və zərərin ödənilməsi məbləğləri, bunun ödənilməsi müddətləri və qaydası haqqında mübahisələr məhkəmədə, habelə tərəflərin sazişi və ya Azərbaycan Respublikasının beynəlxalq müqaviləsi ilə nəzərdə tutulmuş hallarda münsiflər məhkəməsində həll olunur. [vii][7]

Maddə 13. **İnvestisiya fəaliyyətinə xitam verildikdə təminatlar**

İnvestisiya fəaliyyətinə xitam verildikdə xarici investorun hüququ var ki, ona çatası investisiyanı və investisiya ilə əlaqədar gəlirləri investisiya fəaliyyətinə xitam verildiyi zaman real dəyər üzrə pul və əmtəə formasında alsın.

Maddə 14. **Xarici valyuta ilə gəlirlərin və başqa məbləğlərin köçürülməsinə təminatlar**

Müvafiq vergi və rüsumları ödədikdən sonra xarici investorların investisiya ilə əlaqədar qanuni əsaslarla xarici valyuta şəklində əldə etdikləri gəlirləri və başqa məbləğləri, o cümlədən kompensasiyaları və zərərin ödənilməsi məbləğlərini xaricə köçürməsinə təminat verilir.

Maddə 15. **Mənfəətdən istifadə üçün təminatlar**

Azərbaycan Respublikası ərazisində xarici investorların götürdükləri mənfəət həmin pul vahidi şəklində yenidən investisiya kimi qoyula bilər, Azərbaycan Respublikasının banklarında saxlana bilər, Azərbaycan Respublikası Milli Bankının müəyyən etdiyi qaydada və şərtlərlə xarici valyuta almaq üçün sərf edilə bilər.

III BÖLMƏ

## XARİCİ İNVESTİSİYA QOYULMUŞ MÜƏSSİSƏLƏRİN YARADILMASI VƏ FƏALİYYƏTİ

Maddə 16. **Xarici investisiya qoyulmuş müəssisələr**

Xarici investisiyalı müəssisələr səhmdar cəmiyyətləri, məhdud məsuliyyətli cəmiyyətlər, digər təsərrüfat cəmiyyətləri və ortaqlıqları şəklində, habelə Azərbaycan Respublikasının (qanunvericiliyinə zidd olmayan hər hansı başqa formalarda yaradılır.

Azərbaycan Respublikasının ərazisində xarici investorların pay iştirakı ilə müəssisələr (birgə müəssisələr); tamamilə xarici investorlara məxsus olan müəssisələr (xarici müəssisələr); xarici hüquqi şəxslərin nümayəndəlikləri (büroları, kontorları, agentlikləri) yaradıla və fəaliyyət göstərə bilər.

Birgə və xarici müəssisələr Azərbaycan Respublikasının hüquqi şəxsləridir.

Xarici investisiyalı müəssisələrin yaradılması qaydası Azərbaycan Respublikasının

qanunvericiliyi ilə müəyyən edilir.

Xarici investisiyalı bankların yaradılmasının xüsusiyyətləri Azərbaycan Respublikasının banklar və bank fəaliyyəti haqqında qanunvericilik aktları ilə müəyyən edilir.

Azərbaycan Respublikasında xarici investisiyalı müəssisələrin uçotu müvafiq icra hakimiyyəti orqanı tərəfindən aparılır. viii[8]

Maddə 17. **Ekspertiza**

Xarici investisiyalı müəssisə yaradılarkən onun təsisçiləri Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda və qaydada sanitariya-gigiyena və ekoloji tələblərə riayət olunmasına dair ekspertiza rəyi almalıdırlar. Xarici investisiyalı müəssisə fəaliyyət göstərdiyi dövrdə və ləğv edilərkən belə rəy almalıdır.

İri miqyaslı tikinti və rekonstruksiya aparılması və ya iri faydalı qazıntı yataqlarının işlənilməsi ilə əlaqədar belə müəssisələr yaradılarkən texniki-ekoloji layihələrin müvafiq ekspertizasının keçirilməsi də tələb olunur.

Müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərinə aid edilmiş hallarda investorların investisiya qoyuluşu ilə bağlı təkliflərinin ekspertizası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir. ix[9]

M a d d ə 18. **Dövlət qeydiyyatı**

Xarici investisiyalı müəssisələr müvafiq icra hakimiyyəti orqanında dövlət qeydiyyatına alınırlar. Dövlət qeydiyyatı Azərbaycan Respublikasının müvafiq qanunu ilə müəyyənləşdirilmiş qaydada həyata keçirilir. x[10]

Xarici investisiyalı müəssisə dövlət qeydiyyatına alındığı andan hüquqi şəxs hüquqları əldə edir. Dövlət qeydiyyatını aparmış orqan qeydəalma haqqında məlumatı mətbuatda dərc etdirir. xi[11]

Xarici investisiyalı müəssisələr qanunvericiliklə müəyyən edilmiş qaydada hüquqi şəxslərin dövlət reyestrinə daxil edilir. xii[12]

Xarici investisiyalı müəssisənin dövlət qeydiyyatına alınmasından yalnız "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda imtina edilə bilər. xiii[13]

Dövlət qeydiyyatına almaqdan imtina olunduqda bu barədə Azərbaycan Respublikasında inzibati qaydada və (və ya) məhkəmə qaydasında şikayət oluna bilər. xiv[14]

Maddə 19. **Törəmə müəssisələr, filiallar və nümayəndəliklər**

Xarici investisiyalı müəssisə Azərbaycan Respublikasının qanunvericiliyində və xarici dövlətlərin müvafiq qanunvericiliyində

müəyyənləşdirilmiş şərtlərə riayət etməklə Azərbaycan Respublikasında və xaricdə hüquqi şəxs hüquqlarına malik törəmə müəssisələr, habelə filiallar və nümayəndəliklər yarada bilər.

Azərbaycan ərazisindəki filiallar və nümayəndəliklər Azərbaycan Respublikasının bank idarələrində hesablar açmaq hüququna malikdirlər.

M a d d ə 20. **Müəssisələrin birləşməsi**

Xarici investisiyalı müəssisələr Azərbaycan Respublikasının qanunvericilik aktlarında nəzərdə tutulmuş şərtlərlə və qaydada birləşib assosiasiyalar, konsernlər, konsorsiumlar və başqa birliklər yarada bilər.

Belə müəssisələr əvvəllər yaradılmış birliklərə daxil ola bilər.

M a d d ə 21. **Birgə müəssisə iştirakçılarının əmanətlərinin qoyulması**

Birgə müəssisənin nizamnamə fonduna hər bir iştirakçının əmanətlərinin qoyulması müddətləri, məbləği, qoyulması və qiymətləndirilməsi qaydası təsis sənədlərində nəzərdə tutulur. Birgə müəssisə iştirakçılarının müəssisənin nizamnamə fonduna əmanət kimi qoyduğu əmlakın dəyəri birgə müəssisə iştirakçıları arasında razılığa əsasən müəyyən edilir.

(çıxarılıb) xv[15]

M a d d ə 22. **Ehtiyat fondu**

Xarici investisiyalı müəssisələrdə nizamnamə fondunun 25 faizinədək məbləğdə ehtiyat fondu yaradılır. Ehtiyat fondu illik ayırmalar yolu ilə yaradılır. Ayırmaların məbləğini və valyutanın növünü müəssisə müstəqil müəyyən edir.

M a d d ə 23. **Respublika ərazisində məhsulun satışı və göndərilməsi**

Xarici investisiyalı müəssisə istehsal etdiyi məhsula (işlərə, xidmətlərə) qiymət qoymaq, respublikanın daxili bazarında onun satışı şərtlərini müəyyən etmək, bu bazardan məhsul (işlər, xidmətlər) göndərənləri seçmək ixtiyarına malikdir.

M a d d ə 24. **Azərbaycan Respublikasının ərazisində xarici valyuta ilə hesablaşmalar**

Azərbaycan Respublikasının ərazisində xarici investisiyalı müəssisələrin hesablaşma zamanı xarici valyutadan, habelə xarici valyuta şəklində tədiyyə sənədlərindən istifadə etməsinə Azərbaycan Respublikasının valyuta tənzimlənməsi haqqında qanunvericiliyi ilə müəyyən olunmuş qaydada yol verilir.

M a d d ə 25. **Məhsul ixracı və idxalı**

Tamamilə xarici investorlara məxsus müəssisələr və nizamnamə-fondunun 30 faizindən çoxu (xarici investisiyadan ibarət olan müəssisələr öz istehsal etdikləri məhsulu (işləri, xidmətləri) lisenziyasız ixrac edə bilərlər. Xarici investisiyalı müəssisə özünün təsərrüfat fəaliyyəti üçün məhsulu (işləri, xidmətləri) lisenziyasız idxal edə bilər.

Məhsulun (işlərin, xidmətlərin) xarici investisiyalı müəssisələrin istehsal etdiyi məhsula aid edilməsi qaydasını Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən edir.

Xarici investisiyalı müəssisələrin öz məhsulunu ixrac etməkdən valyuta ilə əldə etdikləri satış pulu onların sərəncamında qalır.

M a d d ə 26. G**ömrük vergisi**

Birgə müəssisənin nizamnamə fonduna xarici investorun əmanəti kimi və ya tamamilə xarici investora məxsus müəssisənin yaradılması üçün Azərbaycan Respublikasına gətirilən əmlak gömrük rüsumundan azad edilir. xvi[16]

Xarici investisiyalı müəssisənin əcnəbi işçilərinin öz ehtiyacları üçün Azərbaycan Respublikasına gətirdikləri əmlak gömrük rüsumundan azad edilir.

M a d d ə 27. **Sığorta**

Azərbaycan Respublikasının qanunvericiliyi ilə məcburi sığortalama nəzərdə tutulmadıqda, xarici investisiyalı müəssisə öz əmlakının, istehsal, maliyyə və başqa risklərinin sığortalanıb sığortalanmayacağını özü həll edir.

M a d d ə 28. **Vergitutma**

Xarici investisiyalı müəssisələr, habelə xarici investorlar Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilən vergiləri ödəyirlər.

Maddə 29. **(çıxarılıb)** xvii[17]

M a d d ə 30. **Mühasibat uçotu və hesabat**

Xarici investisiyalı müəssisə Azərbaycan Respublikasında qüvvədə olan qaydalara, yaxud istəsə, həmçinin xarici investorun mənsub olduğu ölkədə qüvvədə olan qaydalara müvafiq

surətdə mühasibat uçotu və hesabat aparır.

M a d d ə 31. **Öhdəliklərin təmin edilməsi**

Xarici investisiyalı müəssisə götürdüyü öhdəliklərin bütün növlərini təmin etmək, o cümlədən borc vəsaiti cəlb etmək üçün öz əmlakından istifadə edə bilər. Öhdəlikləri təmin etmək üçün o, binalar, qurğular, avadanlıq üzərində əmlak hüquqlarından və digər əmlak hüquqlarından, o cümlədən torpaqdan istifadə hüququndan istifadə edə bilər.

Müvafiq icra hakimiyyəti orqanı investisiya fəaliyyəti sahəsində qüvvədə olan qanunvericiliyi pozmuş hüquqi və fiziki şəxslər barədə qanunvericilikdə müəyyən edilmiş tədbirlərin görülməsi üçün aidiyyəti üzrə müvafiq dövlət orqanlarına məlumat verir, habelə investisiya mübahisələrinin həll olunması ilə bağlı investorlara kömək göstərir. [xviii[18]]

M a d d ə 32. **İntellektual fəaliyyət nəticələrinə hüquqlar və digər qeyri-əşya hüquqları**

Xarici investisiyalı müəssisələrin intellektual fəaliyyət nəticələrinə olan hüquqları, habelə digər qeyri-əşya hüquqları (nou-hau, kommersiya sirri və s.) Azərbaycan Respublikasının qanunvericilik aktlarına müvafiq surətdə müdafiə olunur və həyata keçirilir.

M a d d ə 33. **Əmək münasibətləri**

Xarici investisiyalı müəssisədə istehsal və əmək münasibətləri, o cümlədən işəgötürmə və işdən azadetmə, əmək və istirahət rejimi, əmək haqqı, təminat və kompensasiya məsələləri kollektiv müqavilə (saziş) və fərdi əmək müqavilələri (bağlaşmalar) ilə tənzimlənir.

Kollektiv və fərdi əmək müqavilələrinin şərtləri həmin müəssisənin işçilərinin vəziyyətini Azərbaycan Respublikasının qanunvericilik aktlarında nəzərdə tutulmuş şəraitə nisbətən pisləşdirə bilməz.

Xarici investisiyalı müəssisənin əcnəbi işçilərinin əməyinin ödənilməsi, onlara məzuniyyətlər verilməsi məsələləri həmin işçilərin hər biri ilə bağlanan fərdi əmək müqavilələrində (bağlaşmalarda) həll edilməlidir. Bu aldıqları əmək haqqını gəlir vergisi ödədikdən sonra Azərbaycan Respublikası Milli Bankının müəyyən etdiyi qaydada xaricə köçürə bilərlər. [xix[19]]

M a d d ə 34. **Sosial sığorta və təminat**

Xarici investisiyalı müəssisənin işçilərinin sosial sığortası və sosial təminatı ~~(əcnəbi işçilərin pensiya təminatı istisna olmaqla)~~ Azərbaycan Respublikası qanunvericiliyinin normaları ilə tənzimlənir.

Xarici investisiyalı müəssisədə işləyən Azərbaycan Respublikası ərazisində daimi yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin əmək pensiyası təminatı hüququ "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun tənzimlənir. [xx[20]]

Müəssisə yerli və əcnəbi işçilərin sosial sığortası üzrə məcburi dövlət sosial sığorta haqlarını Azərbaycan Respublikasının müəssisələri və təşkilatları üçün müəyyənləşdirilmiş dərəcələr üzrə ödəyir. [xxi[21]]

M a d d ə 35. **Ləğvetmə**

Xarici investisiyalı müəssisə Azərbaycan Respublikasının qanunvericilik aktlarında nəzərdə tutulmuş hallarda və qaydada ləğv edilə bilər. [xxii[22]]

IV BÖLMƏ

## XARİCİ İNVESTORLARIN QİYMƏTLİ KAĞIZLAR ƏLDƏ ETMƏSİ

M a d d ə 36. **Dövlət qiymətli kağızlarının əldə edilməsi**

Xarici investorlar dövlət qiymətli kağızlarını Azərbaycan Respublikasının qanunvericiliyində müəyyənləşdirilən şərtlərlə və qaydada əldə edirlər. :

M a d d ə 37. **Müəssisələrin iştirak hissələrini, paylarını, səhmlərini və başqa qiymətli kağızlarını xarici investorların əldə etməsi**

Xarici investorlar Azərbaycan Respublikasının ərazisində yerləşən müəssisələrin iştirak hissələrini, paylarını, səhmlərini və başqa qiymətli kağızlarını Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada əldə edə bilərlər.

V BÖLMƏ

## XARİCİ İNVESTORLARIN TORPAQDAN İSTİFADƏ HÜQUQLARINI VƏ BAŞQA ƏMLAK HÜQUQLARINI ƏLDƏ ETMƏSİ

Maddə 38. **Torpaqdan və başqa təbii ehtiyatlardan istifadə hüququ**

Xarici investorlara və xarici investisiyalı müəssisələrə torpaqdan və başqa təbii ehtiyatlardan istifadə hüquqlarının, o cümlədən torpağın icarəsi hüququnun verilməsi Azərbaycan Respublikasının Torpaq məcəlləsi və Azərbaycan Respublikasının başqa qanunvericilik aktları ilə tənzimlənir.

Maddə 39. **İcarə**

Xarici investorların və xarici investisiyalı müəssisələrin icarəsinə əmlakı icarəyəverən müqavilələr əsasında və Azərbaycan Respublikasının icarə qanunvericiliyinə müvafiq surətdə verir.

M a d d ə 40. **Konsessiya müqavilələri**

Xarici investorlara faydalı qazıntı yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi, digər təbii ehtiyatların istifadəyə verilməsi hüquqları Azərbaycan Respublikası Nazirlər Kabinetinin onlarla bağladığı və Azərbaycan Respublikası Ali Sovetinin təsdiq etdiyi konsessiya müqavilələri əsasında verilir.

Müqavilədə başqa şərt qoyulmayıbsa, konsessiya müqaviləsi şərtlərinin birtərəfli qaydada dəyişdirilməsinə yol verilmir.

VI BÖLMƏ

## SƏRBƏST İQTİSADİ ZONALARDA XARİCİ İNVESTİSİYA

Maddə 41. **Sərbəst iqtisadi zonalarda xarici investorların və xarici investisiyalı müəssisələrin fəaliyyəti**

Azərbaycan Respublikasında xarici investorların, xarici investisiyalı müəssisələrin təsərrüfat fəaliyyəti üçün güzəştli rejimin müəyyən edildiyi ərazi sərbəst iqtisadi zona sayılır.

Sərbəst iqtisadi zonaların yaradılması qaydası, xarici investorların və xarici investisiyalı müəssisələrin orada qeydə alınması, təsərrüfat fəaliyyəti və başqa fəaliyyət ilə məşğul olması şərtləri Azərbaycan Respublikasının sərbəst iqtisadi zonalar haqqında qanunvericiliyi ilə müəyyən edilir.

Sərbəst iqtisadi zonaların yaradılmasına və bu zonalarda fəaliyyətin tənzimlənməsinə dair təkliflər müvafiq icra hakimiyyəti orqanı tərəfindən hazırlanır. [xxiii][23]

VII BÖLMƏ

## YEKUN MÜDDƏALARI

M a d d ə 42. **Mübahisələrə baxılması**

Azərbaycan Respublikasında xarici investorlar və xarici investisiyalı müəssisələr ilə

Azərbaycan Respublikasının dövlət orqanları, müəssisələri, ictimai təşkilatları və başqa hüquqi şəxsləri arasında mübahisələrə, xarici investisiyalı müəssisənin iştirakçıları arasında mübahisələrə, habelə xarici investisiyalı müəssisənin iştirakçıları ilə həmin müəssisə arasında mübahisələrə məhkəmələrdə, yaxud tərəflərin razılığına əsasən münsiflər məhkəməsində, o cümlədən xaricdəki münsiflər məhkəməsində baxılır. [xxiv[24]]

M a d d ə 43. **Beynəlxalq müqavilələr**

Azərbaycan Respublikasının beynəlxalq müqaviləsində bu Qanundakından fərqli qaydalar müəyyən edildikdə beynəlxalq müqavilənin qaydaları tətbiq olunur.

**Azərbaycan Respublikasının Prezidenti**
**A. MÜTƏLLİBOV.**

Bakı şəhəri, 15 yanvar 1992-ci il.
№ 57.

QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[i[1]] 23 noyabr 2001-ci il tarixli 219-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2001-ci il, № 12, maddə 736**) ) 5-ci maddənin ikinci hissəsindən "**vergi güzəştləri və başqa**" sözləri çıxarılmışdır.

[ii[2]] 30 aprel 2002-ci il tarixli 317-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2001-ci il, № 1, maddə 1**) ilə 5-ci maddəyə üçüncü hissə əlavə edilmişdir.

[iii[3]] 9 oktyabr 2007-ci il tarixli 429-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 10, maddə 938**) ilə 6-cı maddəsinin 2-ci hissəsində "**Azərbaycan Respublikası Nazirlər Kabinetinin**" sözləri "**müvafiq icra hakimiyyəti orqanının**" sözləri ilə, "**xüsusi icazə**" sözləri "**xüsusi razılıq**" sözləri ilə əvəz edilmişdir.

[iv[4]] 23 mart 2001-ci il tarixli 103-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2001-ci il, № 6, maddə 360**) ilə 7-ci maddəsinin ikinci hissəsinin ikinci cümləsində “**müdafiənin və milli təhlükəsizliyin**” sözü “**müdafiənin, milli təhlükəsizliyin, ətraf təbii mühitin və əhalinin müdafiəsinin**” sözləri lə əvəz edilmişdir.

[v[5]] 30 aprel 2002-ci il tarixli 317-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2001-ci il, № 1, maddə 1**) ilə 8-ci maddədə "**Nazirlər Kabineti**" sözləri "**müvafiq icra hakimiyyəti orqanı**" sözləri ilə əvəz edilmişdir.

[vi[6]] 23 noyabr 2001-ci il tarixli 219-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2001-ci il, № 12, maddə 736**) ) 10-cu maddənin ikinci hissəsindən "**vergitutma**" sözləri çıxarılmışdır.

[vii[7]] 05 oktyabr 2001-ci il tarixli 190-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2001-ci il, № 11, maddə 683**) ilə 12-ci maddənin dördüncü hissəsindən "**öz səlahiyyətləri daxilində müvafiq olaraq Azərbaycan Respublikasının Ali Arbitraj Məhkəməsində, Azərbaycan Respublikasının Ali Məhkəməsində**", sözləri "**məhkəmədə**" sözləri ilə əvəz edilmişdir.

[viii[8]] 30 aprel 2002-ci il tarixli 317-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2001-ci il, № 1, maddə 1**) ilə 16-cı maddəyə altıncı hissə əlavə edilmişdir.

---

ix[9] 30 aprel 2002-ci il tarixli 317-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2001-ci il, № 1, maddə 1**) ilə 17-ci maddəyə üçüncü hissə əlavə edilmişdir.

x[10] 05 noyabr 1996-cı il tarixli 188-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 1997-ci il, № 3, maddə 226**) ilə 18-ci maddənin birinci hissəsi yeni redaksiyada verilmişdir. Maddənin əvvəlki redaksiyasında deyilirdi:

> ~~Xarici investisiyalı müəssisəni səlahiyyət verilmiş dövlət orqanı dövlət qeydiyyatına almalıdır. Qeydiyyatın qaydasını, habelə bunun üçün zəruri olan təsis sənədlərinə və başqa sənədlərə verilən tələbləri Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən edir.~~

xi[11] 05 noyabr 1996-cı il tarixli 188-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 1997-ci il, № 3, maddə 226**) ilə 18-ci maddəsinin ikinci hissəsinin ikinci cümləsində “**qeydiyyatı**” sözü “**dövlət qeydiyyatını**” sözləri əlavə edilmişdir.

xii[12] 10 iyun 2005-ci il tarixli 925-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8, maddə 684**) ilə 18-ci maddənin üçüncü hissəsində "**müəssisələrin dövlət qeydiyyatına alınması haqqında məlumat vəkil edilmiş dövlət orqanının tutduğu respublika**" sözləri "**müəssisələr qanunvericiliklə müəyyən edilmiş qaydada hüquqi şəxslərin dövlət**" sözləri ilə əvəz edilmişdir.

xiii[13] 10 iyun 2005-ci il tarixli 925-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8, maddə 684**) ilə 18-ci maddənin dördüncü hissəsi yeni redaksiyada verilmişdir. Maddənin əvvəlki redaksiyasında deyilirdi:

> ~~Xarici investisiyalı müəssisəni dövlət qeydiyyatına almaqdan yalnız o halda imtina edilə bilər ki, belə müəssisənin yaradılması qaydası haqqında Azərbaycan Respublikasının qanunvericiliyi pozulmuş olsun, yaxud qeydiyyat üçün zəruri sənədlər müəyyən edilmiş tələblərə uyğun gəlməsin, habelə qarşıdakı fəaliyyət növləri Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan edilmiş olsun.~~

xiv[14] 05 noyabr 1996-cı il tarixli 188-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 1997-ci il, № 3, maddə 226**) ilə 18-ci maddəsinin ikinci, üçüncü və beşinci hissələrində “**qeydə**” sözü “**dövlət qeydiyyatına**” sözləri əlavə edilmişdir.

9 oktyabr 2007-ci il tarixli 430-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2007-ci il, № 11, maddə 1053**) ilə 18-ci maddəsinin beşinci hissəsində “**məhkəmə qaydasında**” sözlərindən əvvəl “**inzibati qaydada və (və ya)**” sözləri əlavə edilmişdir.

xv[15] 05 noyabr 1996-cı il tarixli 188-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 1997-ci il, № 3, maddə 226**) ilə 21-ci maddənin ikinci hissəsi çıxarılmışdır. Maddənin əvvəlki redaksiyasında deyilirdi:

> ~~Birgə müəssisə qeydə alındıqdan bir il sonra hər (iştirakçının təsis sənədlərində göstərilən əmanətlərin 50 faizini nizamnamə fonduna keçirdiyini təsdiq edən sənəd olmadıqda müəssisəni qeydə almış orqan onu tutarsız hesab edir və birgə müəssisələrin reyestrindən çıxarır. Reyestrdən çıxarma barədə məlumat mətbuatda dərc edilir.~~

xvi[16] 23 noyabr 2001-ci il tarixli 219-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2001-ci il, № 12, maddə 736**) 26-cı maddənin birinci hissəsindən "**və ondan idxal vergisi tutulmur**" sözləri çıxarılmışdır.

xvii[17] 23 noyabr 2001-ci il tarixli 219-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2001-ci il, № 12, maddə 736**) 29-cu maddə çıxarılmışdır. Maddənin əvvəlki redaksiyasında deyilirdi:

> ~~Maddə 29. **Xarici investisiyalı müəssisələrin fəaliyyətinin vergi tutmaq məqsədilə yoxlanması**~~
>
> ~~Vergi tutmaq məqsədilə xarici investisiyalı müəssisələrin maliyyə və kommersiya fəaliyyətini auditor təşkilatları yoxlayırlar.~~

~~Azərbaycan Respublikasının qanunvericilik aktlarında belə :müəssisələrin fəaliyyətinin ayrı-ayrı cəhətlərini yoxlamağın həvalə edildiyi vergi orqanları və başqa dövlət orqanları zərurət olduqca və yalnız öz səlahiyyəti daxilində Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yoxlama apara bilər.~~

~~Vergi orqanları və başqa orqanlar, onların vəzifəli şəxsləri kommersiya sirrinin açılmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.~~

xviii[18] 30 aprel 2002-ci il tarixli 317-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2001-ci il, № 1, maddə 1**) ilə 31-ci maddəyə ikinci hissə əlavə edilmişdir.

xix[19] 03 dekabr 2002-ci il tarixli **385-IIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2003-cü il, № 1, maddə 3**) ilə 33-cü maddənin üçüncü hissəsindən ikinci cümlədən "**xarici valyuta ilə**" sözləri çıxarılmış və həmin hissədə "**ödədikdən sonra**" sözlərindən sonra "**Azərbaycan Respublikası Milli Bankının müəyyən etdiyi qaydada**" sözləri əlavə edilmişdir.

6 mart 2007-ci il tarixli **260-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu(**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 5, maddə 401**) ilə 33-cü maddənin üçüncü hissəsindən "**, onların pensiya təminatı**" sözləri çıxarılmışdır.

xx[20] 6 mart 2007-ci il tarixli **260-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu(**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 5, maddə 401**) ilə ikinci hissə yeni redaksiyada verilmişdir.
əvvəlki redaksiyada deyilirdi:

~~Xarici investisiyalı müəssisə əcnəbi işçilərin pensiya təminatı üçün tədiyələri onların daimi yaşadıqları ölkələrin müvafiq fondlarına həmin ölkələrin valyutası ilə və şərtləri üzrə keçirir.~~

xxi[21] 6 mart 2007-ci il tarixli **260-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu(**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 5, maddə 401**) ilə 34-cü maddədə birinci hissədən "**(əcnəbi işçilərin pensiya təminatı istisna olmaqla)**" sözləri çıxarılmışdır, üçüncü hissədə "**dövlət sosial sığortası üzrə ayırmaları və yerli işçilərin pensiya təminatı üçün ayırmaları**" sözləri "**sosial sığortası üzrə məcburi dövlət sosial sığorta haqlarını**" sözləri ilə əvəz edilmişdir.

xxii[22] 23 noyabr 2001-ci il tarixli 219-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2001-ci il, № 12, maddə 736**) 35-ci maddənin ikinci hissəsi çıxarılmışdır. Maddənin əvvəlki redaksiyasında deyilirdi:

~~Xarici investisiyalı müəssisə ləğv edilərkən onun yığdığı aktivlərdən real dəyəri üzrə vergi tutulur.~~

xxiii[23] 30 aprel 2002-ci il tarixli 317-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2001-ci il, № 1, maddə 1**) ilə 41-ci maddəyə üçüncü hissə əlavə edilmişdir.

xxiv[24] 05 oktyabr 2001-ci il tarixli 190-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2001-ci il, № 11, maddə 683**) ilə 42-ci maddədən "**Azərbaycan Respublikasının qanunvericilik aktlarında nəzərdə tutulmuş hallarda isə təsərrüfat mübahisələrinə baxan orqanlarda**" sözləri çıxarılmışdır.